## Sizin kompüter



Əgər uşaq sizin kompüterinizdə işləyirsə: antivirus sisteminizi təzələyin, zərərli proqram vasitələrindən qorunmaq üçün kompüterinizə xüsusi filtrlər (süzgəc proqramlar) yazın, müntəzəm olaraq kompüterinizi yoxlayın, məlumatlarınızın ehtiyat surətini çıxarın. Yaxşı olar ki, kompüterinizə “bərpa nöqtəsi” (*Recovery point*) yazasınız.

## Yaddaş!



Unutmayın ki, uşaqların hər yaş dövrünün öz təhlükəsizlik vərdişləri var. Yaş dövrünün təhlükəsizlik normalarını daha ətraflı öyrənmək üçün aşağıdakı keçidlərə (linklərə) baxın:

**http://www.google.ru/familysafety/**
**http://netsafe.az**

Əgər qeyd olunan məsələlər haqqında əlavə məlumat almaq istəsəniz, Multimedia Mərkəzinin **www.cit.az** **və** **www.netsafe.az**, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin **www.mincom.gov.az**, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin www.scfwca.gov.az İnternet resurslarına müraciət edə və ya bizə elektron məktub yaza bilərsiniz: **info@cit.az.**

Əgər İnternet zorakılığı halı baş veribsə, mütləq müvafiq dövlət orqanlarında 24 saat ərzində xidmət göstərən qaynar xətt xidmətlərinə müraciət edin:
**Daxili İşlər Nazirliyi, 102 xidməti-zəng mərkəzi**
**İnsan hüquqlari üzrə Müvəkkil (Ombudsman) Aparatı, 916 qaynat xətt xidməti**

*Buklet ATƏT-in maliyyə vəsaiti hesabına çap edilmişdir.*

ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
Bakı Ofisi



# UŞAQLAR VƏ İNTERNET

*Əziz valideyn, gec-tez sizin uşağınız da kompüter arxasına keçərək İnternetə daxil olacaq. Siz gözünüzü açıb-yumana kimi artıq uşağın Çat və diskussiyalara baş vurduğunu, Onlayn oyunlar oynadığını, saytdan-sayta keçdiyini, bəzən isə hətta kredit kartı ilə bonuslar aldığını görürsünüz. Bəs belə halda nə etməli, uşağa nəyi öyrətməli, nəyi izah və nəyi qadağan etməli?*

## İlk addımlar



Uşaq İnternetdə ilk müstəqil addımlarını atmazdan əvvəl, ona izah edilməlidir ki, şəxsi məlumatları – ad, soyad, ünvan və telefon nömrələri saytlara qoymaq vacib deyil. Uşaq bilməlidir ki, başqasının fotosunun onun icazəsi və xəbəri olmadan əsl adı ilə və ya başqa ad altında kütləvi profillərə qoyulması ciddi fəsadlar törədə bilər.

Uşaqlara şifrə (parollar) məsələsində ehtiyatlı olmağı izah etmək lazımdır. O, şifrəni yadda saxlamağa adət etməlidir. Həmçinin qeydiyyatdan keçməklə daxil olduğu saytlarda işi başa vurduqda, onları sadəcə bağlamamalı, “Çıxış” (“Sign out”, “Выход”) menyularından istifadə etməlidir.

Uşağa İnternetdə işləməyin etiket qaydalarını da izah etmək vacibdir. Bu barədə “qızıl qayda” onu deyir ki, əgər şəxsin üzünə bir sözü demək istəmirsinizsə, bu sözü ona SMS, Çat və ya e-mail vasitəsilə də yazmayın!

Əgər uşağınız zərərli saylara daxil olursa, brauzerdə *Google* axtarış sistemini və *YouTube*-u “təhlükəsiz” rejimə qoyun. Bu barədə əlavə məlumatı adı çəkilən resursların saytlarından almaq olar. Bunun üçün Google-da ingiliscə: *Google Search – SafeSearch,* türkcə: *Güvenli Arama: Açma ve ya kapatma* və ya rusca: *Âключение и выключение фильтров Безопасного поиска* açar kəlmələrdən istifadə etmək olar. YouTube-da isə sadəcə bu linkə daxil olun:

**http://www.youtube.com/t/community_guidelines**

Bəs uşağı arzuolunmaz kontentdən məzmundan necə uzaq tutmalı? Uşağa izah edin ki, real dünyada olduğu kimi, İnternetdə də tez-tez xuliqanlıq, ziyankarlıq və cinayətkarlıq baş verir. Uşaqda elə vərdiş yaradın ki, o, ona qəribə görünən informasiya ilə rastlaşan kimi bunu sizinlə bölüşsün.

## İnternetdə tanışlıq

İnternetdə ünsiyyət təkcə uşaqlar üçün deyil, elə böyüklər üçün də böyük ünsiyyət riski daşıyır.



Uşaq İnternetdə yeni adamlarla tanış olmaq məsələsində ehtiyatlı olmalıdır. İnternetdə tez-tez rast gələn cinayətlərdən biri seksual qurban axtarışıdır. Uşağa izah edin ki, Çatda qəflətən ona seksual xarakterli təkliflər gələrsə, onlara heç zaman əhəmiyyət verməsin və dərhal sizi məlumatlandırsın. Uşağınızla İnternetdə foto yerləşdirmək məsələsi barədə də ayrıca söhbət edin. Yaxşı olar ki, uşaq öz fotosunu harasa yerləşdirəndə və ya göndərəndə sizin bundan xəbəriniz olsun.

## İnternet dələduzluğu



İnternetdə nəinki uşaqların, hətta böyüklərin də rastlaşdığı ən böyük problemlərdən biri də İnternet dələduzluğudur. Əgər uşağınız birdən-birə kredit kartı ilə maraqlanmağa başlayıbsa, hətta sizin kredit kartınızın nömrəsini istəyirsə, bu, sizin üçün ciddi siqnal ola bilər. Əslində uşaq İnternet-mağazalarla maraqlanıb oradan hər hansı mal almaq istəyirsə, burada pis bir şey yoxdur. Bunun üçün mağazanın tarixçəsini öyrənin, mağaza domeninin nə zaman alındığı (*WhoIs* xidməti ilə) və mağazanın kassa çeki verib-vermədiyi ilə maraqlanın.

## Geymerlik və ya İnternet asılılığı



Hazırda İnternetdə uşaqlara böyük təhlükələrdən biri də İnternet asılılığıdır. Yadda saxlayın ki, uşağın İnternetdə qalma müddəti çoxaldıqca, bu onun sağlamlığına da bir o qədər çox zərər vurur, dərslərindən yayındırır və ailədə münaqişəyə səbəb olur. Əgər uşaqla söhbət edib onu kompüterdən, İnternetdən kənar tuta bilmirsinizsə, mütləq psixoterapevtə müraciət edin!